## Ümumi məlumat

Avropa İttifaqı – Aİ (eng. European Union – EU) qərargahı Brüsseldə yerləşən, 27 üzv dövlətdən ibarət olan siyasi və iqtisadi ittifaqdır. Aİ-nin əsası 1951-ci ildə Paris Müqaviləsi ilə qoyulmuş, daha sonra 1957-ci ildə Roma Müqaviləsi ilə dərinləşdirilmiş və 1993-cü ildə Maastrixt Müqaviləsi ilə Avropa İttifaqı adı altında rəsmi formaya salınmışdır.

İttifaqın məqsədi üzv dövlətlər arasında dinc əməkdaşlıq, dayanıqlı iqtisadi inkişaf, insan hüquqlarının qorunması, vahid bazar və sərbəst hərəkət prinsiplərinə əsaslanan ortaq dəyərlərin təşviqidir. Avropa İttifaqının əsas qərarverici qurumları: Avropa Parlamenti, Avropa İttifaqı Şurası, Avropa Zirvəsi, Avropa Komissiyasıdır.

Azərbaycan 2009-cu ildən bəri Aİ ilə Şərq Tərəfdaşlığı proqramı çərçivəsində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq edir.